Avrasya İncelemeleri Dergisi
*Journal of Eurasian Inquiries*

İSTANBUL UNIVERSITY PRESS

Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries 11, 2 (2022): 241-255
DOI: 10.26650/jes.2022.013
Araştırma Makalesi / *Research Article*

# Ermənilərin İşğalçı Fəaliyyətlərinin Nəticəsi Olaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin Yaradılması

# Ermenilerin İşgalcı Faaliyetlerinin Sonucu Olarak Dağlık Karabağ Muhtar Vilayetinin Kuruluşu

# Establishment of the Nagorno-Karabakh Autonomous Region as a Result of the Armenian Occupier Activities

Sevinc Seyidova[1]

**ÖZƏT**

Məqalədə Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasının tarixi aspektləri araşdırılaraq təhlil edilir. Bu məsələyə ermənilərin işğalçı fəaliyyətlərinin nəticəsi kimi qiymət verilir. 1918-1920-ci illərdə Azərbaycan Respublikası ilə ərazi uğrunda müharibə aparan daşnaklar bolşeviklərin Azərbaycanda hakimiyyəti ələ keçirməsindən sonra, nəhayət Azərbaycan torpaqları hesabına Ermənistan Sovet Sosialist Respublikasının yaranmasına nail oldular. Bu dövrdə ermənilər Qarabağı ələ keçirə bilmədilər. Hətta bolşeviklər bunun qeyri – mümkün olduğunu başa düşürdülər. Lakin Azərbaycan ərazisində Qarabağda yaşayan az saylı ermənilərə bolşeviklər tərəfindən muxtariyyətin verilməsi, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması erməniləri Qarabağ torpaqlarına daha da iddialı etdi. SSRİ-nin dağılması prosesində sovet rəhbərliyinin milli münasibətlər sahəsində tutduğu yanlış mövqe imperiya daxilində müəyyən millətçi qüvvələrin ərazi iddiaları ilə bağlı cəhdlərinin yenidən baş qaldırmasına şərait yaratdı. Moskva tərəfindən dəstəklənən erməni millətçi qüvvələri Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini ələ keçirmək üçün öz fəaliyyətlərini genişləndirdilər. Dağlıq Qarabağ ərazisində yaşayan ermənilər millətlərin öz müqəddəratını təyin etmə hüququnu bəhanə edərək, Azərbaycan dövlətinə tabe olmaqdan imtina etdilər. SSRİ-nin dağılması ərəfəsində müasir dövrün ən kəskin milli münaqişələrindən biri olan Dağlıq Qarabağ problemi yarandı ki, bu da məhz XX əsrin 20-ci illərində rus bolşeviklərinin erməni daşnakları ilə birgə "fəaliyyət"lərinin acı nəticəsi idi.

**Açar sözlər:** Azərbaycan, Ermənistan, Dağlıq Qarabağ, vilayət, Rusiya, bolşeviklər, daşnaklar, muxtariyyət

**ÖZ**

Makale Azerbaycan'da Dağlık Karabağ Muhtar Vilayetinin kuruluşunun tarihsel yönlerini incelemekte ve analiz etmektedir. Bu konu ermeni saldırganlığının bir sonucu olarak değerlendirilmektedir. Bolşeviklerin 1918-1920 yıllarında

[1] **Sorumlu yazar/Corresponding author:** Sevinc Seyidova (Tarix elmləri doktoru, Dosent),
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Tarix-Coğrafiya Fakültəsi, Bakı, Azərbaycan
E-mail: seyidovasevinj7@gmail.com
ORCID: 0000-0002-8509-6683

**Başvuru/Submitted:** 29.03.2022
**Revizyon Talebi/Revision Requested:** 04.05.2022
**Son Revizyon/Last Revision Received:** 21.05.2022
**Kabul/Accepted:** 12.06.2022

**Atıf/Citation:** Seyidova, Sevinc." Ermənilərin İşğalçı Fəaliyyətlərinin Nəticəsi Olaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin Yaradılması". *Avrasya İncelemeleri Dergisi - Journal of Eurasian Inquiries 11, 2* (2022): 241-255. https://doi.org/10.26650/jes.2022.013

This work is licensed under Creative Commons Attribution-NonCommercial 4.0 International License

Azerbaycan'da iktidarı ele geçirmesinden sonra Taşnaklar, Azerbaycan Cumhuriyeti ile toprak savaşı yapmış ve sonunda Azerbaycan toprakları pahasına Ermenistan Sovyet Sosyalist Cumhuriyeti'nin kurulmasını sağlamıştır. Bu dönemde ermeniler Karabağ'ı ele geçiremediler. Bolşevikler bile bunun imkansız olduğunu anladılar. Ancak Bolşeviklerin Azerbaycan topraklarında Karabağ'da yaşayan az sayıda ermenilere özerklik vermesi, Dağlık Karabağ Muhtar Vilayetinin kurulması ermenileri Karabağ toprakları için daha da hırslı hale getirdi. SSCB'nin çöküşü sürecinde, Sovyet liderliğinin milli meselelerle ilgili yanlış tutumu,birlik içindeki bazı milliyetçi güçlerin toprak iddiaları ileri sürme girişimlerinin yeniden başlamasına yol açtı. Moskova destekli ermeni milliyetçi güçleri, Azerbaycan Cumhuriyeti'nin Dağlık Karabağ bölgesini ele geçirmek için faaliyetlerini genişletti. Dağlık Karabağ'da yaşayan ermeniler, milletlerin kendi kaderlerini tayin hakkını öne sürerek Azerbaycan devletine tabı olmak istemediler. SSCB'nin çöküşü arifesinde, 1920'lerde rus Bolşeviklerinin ermeni Taşnakları ile "faaliyetlerinin" acı bir sonucu olan, çağımızın en şiddetli milli münakaşalarından biri olan Dağlık Karabağ sorunu ortaya çıktı.
**Anahtar kelimeler:** Azerbaycan, Ermenistan, Dağlık Karabağ, vilayet, Rusya, Bolşevikler, Taşnaklar, muhtariyyat

**ABSTRACT**

The article explores and analyzes the historical aspects of the establishment of the Nagorno-Karabakh Autonomous Region in Azerbaijan. This issue is assessed as a result of the Armenian aggression. After the Bolsheviks seized power in Azerbaijan in 1918-1920, the Dashnaks waged a war for territory with the Republic of Azerbaijan, and finally achieved the establishment of the Armenian Soviet Socialist Republic at the expense of Azerbaijani lands. During this period, the Armenians could not capture Karabakh. Even the Bolsheviks understood that this was impossible. However, the granting of autonomy by the Bolsheviks to the small number of Armenians living in Karabakh in the territory of Azerbaijan and the establishment of the Nagorno-Karabakh Autonomous Region made the Armenians even more ambitious for the lands of Karabakh. In the process of the collapse of the USSR, the wrong position of the Soviet leadership in the field of national relations led to the resumption of attempts by certain nationalist forces within the empire to assert territorial claims. Moscow-backed Armenian nationalist forces expanded their activities to seize the Nagorno-Karabakh region of the Republic of Azerbaijan. Armenians living in the Nagorno-Karabakh region refused to submit to the Azerbaijani state, citing the right of nations to self-determination. On the eve of the collapse of the USSR, the Nagorno-Karabakh problem, one of the most acute national conflicts of modern times, arose, which was the bitter result of the "activities" of the Russian Bolsheviks together with the Armenian Dashnaks in the 1920s.
**Keywords:** Azerbaijan, Armenia, Nagorno-Karabakh, region, Russia, Bolsheviks, Dashnaks, autonomy

## EXTENDED ABSTRACT

On April 28, 1920, armored trains and infantry units of the XI Army of the Russian Soviet Federative Socialist Republic entered Baku. The Azerbaijan Democratic Republic, the first democratic state in the East, collapsed. The Bolsheviks came to power in Azerbaijan "by force and bayonet". The events in Karabakh also helped this occupation. The Armenian uprising in Karabakh in March 1920 and the involvement of Azerbaijan there had a negative impact on the course of events. The uprising was aimed at disrupting the internal stability of the republic. The Dashnaks attacked and killed not only Muslim villages, but also Azerbaijani soldiers. In May and June 1920, the Dashnaks invaded Karabakh. Dashnak General Dro led a gang of bandits in Upper Karabakh and attacked the Jabrayil region. On the eve of the attack by Russian troops, Armenian representatives Primov and Zakharyan came to Moscow and offered the Russian government their help for Armenia to overthrow the Azerbaijani government in

exchange for territorial concessions. After the defeat of the Ganja uprising, the Armenians became particularly depraved, and engaged in looting. Even the new communists were forced to admit it. These events in Azerbaijan in April 1920 again made the republic dependent on Russia. Moreover, the Dashnaks in the guise of the Bolsheviks expressed their claims to the territory of Azerbaijan and demanded territorial concessions. This was one of the reasons for the future conflict.

In 1921-1922, Armenian cadres were involved in the leadership of Nagorno-Karabakh. Even the issue of writing the history of Karabakh and Zangazur was being discussed. Also, given the alleged shortage of personnel in Nagorno-Karabakh, Armenia were asked to send personnel here. Apparently, the Dashnak-Bolsheviks, relying on their patrons - the Russian Bolshevik brothers, carried out the work very cunningly and with great skill. The Armenian Bolsheviks, relying on the Russian Bolsheviks, began to work for the establishment of an Autonomous Region for Armenians in Karabakh. As a result of this activity, on July 7, 1923, the decree of the Central Executive Committee of Azerbaijan on the establishment of the Nagorno-Karabakh Autonomous Region was officially issued. The decree established the establishment of an autonomous province in the Armenian part of Nagorno-Karabakh, with Khankendi as its center, as part of the Azerbaijan SSR and the convening of a congress was envisaged. Clerical work, court proceedings, and school education were to be conducted in Armenian. Many Turkish-Azerbaijani villages were included in the territory of Nagorno-Karabakh. The number of Armenians migrated (XIX century) by the Russians to the Caucasus and Karabakh was very small compared to the Azerbaijani population, and giving them autonomy was the biggest and most tragic mistake. In turn, the issue of granting autonomy to the Azerbaijani population living in Armenia, which at the time was more than the Armenians, was not considered by the Soviet leadership, and was never raised or discussed by the Azerbaijani communists. The territory of Nagorno-Karabakh included 45 villages from the Javanshir district, 92 villages from the Shusha district and 32 villages from the Gubadli district (69 in total). Armenian was officially declared the language of communication with Karabakh. Khankendi being renamed Stepanakert in honor of Shaumyan (September 18, 1923). As a result, the territory of Karabakh was actually given to the Armenians in 1923 by Russia. Although the Nagorno-Karabakh Autonomous Region was declared an integral part of the Azerbaijani SSR according to the regulations adopted in 1924, the Armenians did not give up their desire to create their own state at the expense of Azerbaijani territory. On February 18, 1929, the last part of Zangazur, which was historically Azerbaijani, crossed the border with Iran and was handed over to Armenia. With this decision, the Nuvedi village of the Jabrayil district of Azerbaijan, the Karkivan, Kilid villages of the Ordubad district, and overall, 11 villages were given to Armenia. In this way, the territory of the Soviet Republic of Armenia reached 29.8 thousand sq. Km. Conflicts between Azerbaijanis and Armenians gradually intensified. In general, beginning in 1965, the Soviet government instigated anti-Turkish sentiment in Armenia. In 1985-1990, the Armenian

lobby influenced and pressured the First Secretary of the Central Committee of the Soviet Union and President of the USSR Mikhail Gorbachev. M.Gorbachev became a supporter of the Armenians. In the 1980s, the aggressive policy of the Armenian nationalists entered a new phase. In the late twentieth century, the Armenians resumed war to realize their previously unfinished plans to create a "Greater Armenia from sea to sea." Thus, the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict began in 1988, which was the bitter result of the "activities" of the Russian Bolsheviks together with the Armenian Dashnaks in the 1920s.

## Giriş

1920 - ci il aprelin 28 - də Rusiya Sovet Federativ Sosialist Respublikasının XI Ordusu zirehli qatarları və piyada qoşun hissələri Bakıya daxil oldular. Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. Bolşeviklər "qüvvət və süngü gücünə" Azərbaycanda hakimiyyətə gəldilər. Bu işğalın reallaşmasına Qarabağda baş verən hadisələr də kömək etdi. 1920-ci ilin martında Qarabağda baş verən erməni qiyamı, Azərbaycanın oraya cəlb edilməsi hadisələrin gedişinə öz mənfi təsirini göstərmişdi. Qiyam respublikanın daxili sabitliyinin pozulması məqsədini güdürdü. Daşnaklar nəinki müsəlman kəndlərinə, azərbaycanlılardan ibarət əsgərlərə də hücum edərək, onları öldürürdülər. 1920-ci ilin may-iyun aylarında daşnaklar Qarabağa hücum edirdi. Daşnak generalı Dro Yuxarı Qarabağda quldur dəstəsinə başçılıq edərək Cəbrayıl rayonu ərazisinə hücum etdi (15 may 1920-ci ildə o, Veysəlli, Diləqora, Qaryagın, Qaraqulu, Cəbrayıl istiqamətində yerləşən əraziləri dağıtmış, Cəbrayıl Ağdam teleqraf xəttini kəsmiş, Cəbrayıl qəzasını Ağdamdan ayırmağa cəhd göstərmişdi) [1].

Rus qoşunlarının hücumu ərəfəsində erməni nümayəndələri- Primov və Zaxaryan Moskvaya gələrək, Rusiya Hökumətinə Ermənistana ərazi güzəştləri müqabilində Azərbaycan hökumətini devirmək işinə kömək göstərməyi təklif etmişdilər. Gəncə üsyanının məğlubiyyətindən sonra ermənilər xüsusilə azğınlaşmış, talançılıqla məşğul olurdular. Hətta hakimiyyətə yenicə gəlmiş kommunistlər bunu etiraf etməyə məcbur olurdular.[2] 1920-ci ilin aprelində Azərbaycanda baş verən bu hadisələr respublikanı yenidən Rusiyadan asılı vəziyyətə saldı. Üstəlik bolşevik cildinə girmiş daşnaklar Azərbaycan ərazisinə öz iddialarını bildirdilər və ərazi güzəştləri tələb etdilər. Bu da gələcəkdə baş verəcək münaqişənin səbəblərindən biri oldu.

## 1. Azərbaycan ərazisində süni şəkildə "Qarabağ məsələsinin" yaranması

Bolşeviklər bu dövrdə erməni daşnaklarının təsiri altında idilər. Baxmayaraq ki, Azərbaycanda artıq bolşevik hakimiyyəti mövcud idi, Ermənistanda isə hakimiyyət daşnakların əlində idi. N.Nərimanovla söhbətində K.Orconikidze bildirmişdi: "Mən təklif edirəm ki, Qarabağ və Zəngəzur təcili Azərbaycana birləşdirilsin və onlara muxtariyyat verilsin...Siz öz iddialarınızı Zəngəzur və Qarabağdan başqa Naxçıvan, Şərur – Dərələyəz qəzaları və Ordubada da bildirmisiniz." [3]

Erməni A.Mikoyanın təsiri altında olan və özünü «Qafqazın ağası, canişini» sayan Orconikidze Azərbaycan hökumətini öz torpaqlarına iddialı hesab edirdi. Qəribə olsa da, sülh, qardaşlıq, bərabərlikdən bəhs edən, bu anlayışları özlərinin idealı hesab edən bolşeviklər Azərbaycana qarşı haqsızlıq edərək ona məxsus torpaqları digər dövlətlə bölmək istəyir və Azərbaycanın o dövrkü rəhbərliyi siyasi sadəlövhlük, bəlkə də nadanlıq göstərərək bu haqsızlıqla razılaşırdı.

---

1 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. 1918-1925. Документы и материалы*. Азербайджанское государственное Издательство, Баку, 1989, с. 45.

2 Azərbaycan Respublikası Dövlət Arxivi f.410, siy.1, iş 106, vv. 1-2.

3 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. 1918-1925*. Документы и материалы. Азербайджанское государственное Издательство, Баку, 1989, с.34.

1920-ci il oktyabrın 24-də Qarabağın Fövqəladə komissarı təyin edilmiş A.Şirvaninin N.Nərimanova vurduğu teleqramdan məlum olur ki, Şuşa qəzasında erməni kəndlərində – Tuqa və Tuqavert rayonlarında yerli daşnak Tevanın quldur dəstəsi azərbaycanlıları terrorizə edirdi. Qarabağda kommunistlərin içərisində xeyli daşnak maskalı erməni bolşevik «yoldaşlar» var idi ki, A.Şirvani kimilərinin yüngül əli ilə onlar yenicə yaradılmış hakimiyyət orqanlarına işə cəld edilir (Ambartsumyan, Şadunts və s. kimi), Azərbaycanlılar isə «molla, bəy, qolçomaq» damğası vurularaq həbs olunurdular. Hətta yenicə yaradılmış yerli milis və diviziyalara erməni əsgərləri daha çox cəlb edilirdi[4] . Qarabağda Karo Engibarov, Artaşes Melkumov kimi daşnaklar fəaliyyət göstərirdilər.

1920-ci ilin iyun ayında Orconikidzenin İ.V.Stalin və Q.V.Çiçerinə vurduğu teleqramlarda bir neçə dəfə bu məsələyə toxunulmuş və Azərbaycanın bu əraziləri ayrılmaz tərkib hissəsi hesab etdiyini göstərilmişdi[5]. 1920-ci il iyulun 10-da AK(b)PMK-nın büro iclasında Qarabağın Azərbaycana bağlı olduğu, hətta kəndilərin Ermənistanın tərkibinə daxil olmaq istəmədiyi göstərilmişdi [6].

Bu iclasdan bir neçə gün sonra isə 1920-ci il iyulun 15-də keçirilən büro iclaslarında (B.Yeqorov, A.Mikoyan, Ə.Qarayev, M.Hüseynov, N.Nərimanov, D.Bünyadzadə, Y.Qasımov, B.Naneyşvili, Q.Orconikidze, Y.Stasova, Ermənistanın nümayəndəsi Leqran və XI Ordunun nümayəndələrinin iştirakı ilə) Qarabağ və Zəngəzurun Azərbaycana birləşdirilməsi, Naxçıvan və digərlərindən imtina edərək rus ordusunun oranı tutması təklifi qəbul edildi. Maraqlıdır ki, bu qərarların verilməsində azərbaycanlı bolşeviklərdən çox erməni, gürcü və rus bolşevikləri daha fəal mövqe tutur, azərbaycanlılar isə "beynəlmiləlçiliyi" üstün tutaraq güzəşt mövqeyindən çıxış edirdilər.

Hələ 1920-ci ilin yayında Bakıda Gürcüstan və Ermənistan K(b)P MK-nın xarici büroları yaradılmışdı. Bu məqsədlə Ermənistan və Gürcüstan kommunistlərinin Bakıda konfransı oldu və noyabrda Bakıda Ermənistan İnqilab Komitəsinin qərargahı yaradıldı[7]. 1920-ci il noyabrın 29-da Ermənistanda XI Ordunun hücumu ilə hakimiyyət erməni bolşeviklərinin əlinə keçdi. Bu hadisədən bir gün sonra noyabrın 30-da AK (b)P MK-nın siyasi və təşkilat bürosunun iclasında (N.Nərimanov, Q.Kaminski, Y.Stasova, M.Qasımov, Ə.Qarayev, Orconikidze, V.Yeqorov, M.Hüseynov, Sarkis (Ter-Daniselyan), A. Serebrovskinin iştirakı ilə) Ermənistanda Sovet hakimiyyətinin elan edilməsi haqqında Ermənistan İnqilab Komitəsinin teleqramı müzakirə edilmişdi və bu məsələ ilə bağlı qərar qəbul edilmişdi. Ermənistan hökumətinə deklarasiya ilə müraciət edilərək bildirilmişdi ki, Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir. Zəngəzur Ermənistana keçir, Qarabağın Dağlıq hissəsinə (bolşeviklər Yuxarı Qarabağ terminini Dağlıq Qarabağla əvəz etdilər) öz müqəddəratını təyin etmək hüququ verilirdi. Hər iki respublika arasında hərbi və təsərrüfat ittifaqı bağlanılır.

4 Azərbaycan Respublikası Dövlət Arxivi,f.410, siy.1, iş 90, vv. 2-6.
5 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* с.49-50.
6 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* с.53-5.
7 Seyidova S.M. *Azərbaycanın beynəlxalq əlaqələri (1920-1930-cu illər).* Diplomatiya, Bakı, 1998, s.34.

Ermənistan əleyhinə hərbi əməliyyatlar dayandırıldı. Deklarasiyanın elanı N.Nərimanova tapşırılırdı. Dekabrın 1-də N.Nərimanov Bakı Sovetinin iclasında deklarasiyanı elan etdi [8]. Dekabrın 3-də İrəvana Ermənistan İnqilab Komitəsinə teleqram vuran A.Şirvani sevinərək yazırdı: "Ermənistanda Sovet hakimiyyəti qələbə çaldı. Azərbaycanın qara qanı indi sənaye Ermənistanının damarlarından axacaq…" [9].

Azərbaycan kommunistlərinin öz vətənlərinin ərazi bütövlüyünə, öz sərvətinə bu şəkildə etinasız yanaşması heç bir məntiqə sığmır. Erməni bolşevik-daşnakları Azərbaycan Respublikasında mükəmməl, məqsədyönlü plan əsasında iş quraraq rəhbər vəzifələri ələ keçirir, eyni vaxtda Dağlıq Qarabağ ətrafında hörümçək kimi tor qururdular. Getdikcə, Azərbaycan ərazisində heç vaxt mövcud olmayan "Qarabağ məsələsi" yaranırdı. Erməni bolşevik-daşnakları demək olar ki, əksər büro iclaslarında «Qarabağ məsələsini» müzakirəyə qoyurdular. A. Mikoyan, A. Nazaretyan, L. Mirzoyan və b. dəfələrlə öz çıxışlarında bu məsələnin həll olunmasını (Ermənistanın xeyrinə) tələb etmişdilər.

1921-ci il iyulun 4-də RK(b)P MK-nın Qafqaz Bürosunun Plenumunda (axşam iclasında) Qarabağ məsələsini müzakirə edirlər. İclasda RK (b)PMK-nın üzvü İ.Stalin, Qafqaz bürosü üzvləri Orconikidze, F.Maxaradze, N.Nərimanov, A.Myasnikov, S.Kirov, A.Nazaretyan, M.Oraxelaşvili və Y.Fiqatner iştirak edirdilər. Müzakirə zamanı aşağıdakı 4 məsələ üzrə səsvermə keçirdilər:

1) Qarabağı Azərbaycanın tərkibində saxlamaq;

2) Qarabağ ərazisində azərbaycanlı və erməni əhalisinin iştirakı ilə plebisit (rəy sorğusu) keçirmək;

3) Qarabağın Dağlıq hissəsini Ermənistana birləşdirmək;

4) Rəy sorğusunu yalnız Dağlıq Qarabağın erməni əhalisi içərisində keçirmək.

Birinci və ikinci məsələlər ətrafında səsvermə zamanı yalnız Nərimanov, Maxaradze lehinə səs verirlər, Orconikidze, Myasnikov, Kirov və Fiqatner əleyhinə səs verirlər. Üçüncü və dördüncü məsələlər üzrə isə Orconidze, Myasnikov, Fiqatner, Kirov, Nazaretyan lehinə səs verirlər. Beləliklə, qərara alınır ki, Dağlıq Qarabağ Ermənistan SSR-yə verilsin və rəy sorğusu yalnız Dağlıq Qarabağın erməni əhalisi içərisində keçirilsin. N.Nərimanov bu qərarla razılaşmayaraq öz etirazını bildirmiş və bunu (fikir ayrılığını) nəzərə alaraq məsələnin son həllini RK(b)PMK-nın müzakirəsinə verilməsi vacib hesab edilmişdir. Göründüyü kimi, yalnız ermənilər deyil, Azərbaycanda rəhbər vəzifə tutan Kirov da ermənirlərin mövqeyini müdafiə etmişdir.

1921-ci il iyulun 5-də bu məsələyə RK(b)PMK-nın Zaqafqaziya bürosunun iştirakı ilə baxılır və Dağlıq Qarabağı Azərbaycan SSR hüdudlarında saxlayaraq ona Muxtar Vilayətin tərkibinə daxil olan Şuşa şəhəri mərkəz olmaqla geniş vilayət muxtariyyat hüququ verilməsi haqqında qərar qəbul edilir [10].

8 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* c.63-65.

9 Azərbaycan Respublikası Dövlət Arxivi ,f.420, siy.1, iş 5, v. 18.

10 Paşayev A.Ə. *Açılmamış səhifələrin izi ilə.* Azərbaycan, Bakı, 2001,s.327.

Bundan bir qədər sonra Tiflisdə Zaqafqaziya respublikalarının arasında sərhəd məsələlərini müəyyənləşdirmək üçün xüsusi iclas keçirilir və iyulun 19-da Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin iclasında məlumat verən N.Nərimanov Dağlıq Qarabağın sovet Konstitusiyası çərçivəsində Sovet Azərbaycanının ayrılmaz tərkib hissəsi kimi qalması və vilayət icraiyyə komitəsi başda olmaqla daxili özünüidarə hüququ olmasını söyləyir.

Bu iclasda həmçinin Dağlıq Qarabağda ciddi iş aparılması haqqında da qərar qəbul edilmişdir [11].

Qeyd etmək lazımdır ki, bu dövrdə Dağlıq Qarabağda L.Mirzoyan Azərbaycan əleyhinə iş aparırdı. Bu barədə yazan N.Nərimanov İ.V.Stalinə məktubunda Dağlıq Qarabağın məhz Mirzoyanın güclü təsiri altında Muxtar Vilayət elan edilməsini göstərmişdi[12]. Avqustun 8-də daşnak cildli L.İ.Mirzoyan AK(b)PMK-ya məktub göndərək yazmışdır: «Dağlıq Qarabağda vəziyyəti normallaşdırmaq məqsədilə bir sıra konkret tədbirlər, o cümlədən bütün Dağlıq Qarabağı müstəqil inzibati vahid kimi ayıraraq Mərkəzə – Xalq Komissarları Sovetinə və Azərbaycan MİK-ə, partiya xətti ilə isə AK(b)PMK-ya tabe etmək»[13]. Məktubun surəti RK(b) PMK-nin Qafqaz bürosuna göndərilmişdi.

1921-ci il sentyabrın 26-da L.Mirzoyan, N.Nərimanov, S.Kirov, R.Axundov, Ə.Qarayev və b-nın iştirakı ilə AK(b)PMK-nın təşkilat və siyasi bürolarının iclasında yenidən "Qarabağ işləri" adı altında müzakirə keçirilir[14]. Qəbul edilmiş qərarda "Qafqaz bürosundan xahiş edilir ki, Dağlıq Qarabağın ayrılması haqqında qərarına yenidən baxsın və buna qədər muxtariyyət elan edilməsin. Xüsusi komissiya təşkil edilir ki, bura Qarayev, Əfəndiyev, Stukalov, Mirzoyan daxil olur və bu şəxslərin Azərbaycan MİK-nin sessiyası bitən kimi Qarabağa təcili getmələri nəzərdə tutulurdu. Bundan sonra məsələyə oktyabrın 6-da, nəhayət oktyabrın 21-də Qarabağın (Şuşa, Cavanşir, Qubadlı, Qaryagin qəzaları) rəhbər işçilərinin AK(b)PMK-nı təşkilat bürosunun üzvləri ilə birgə konfransında baxılır" [15].

Konfransda Dağlıq Qarabağın ayrıca Muxtar Vilayətə ayrılması məqsədəuyğun hesab edilməmişdir. 1921-ci il dekabrın 10-da Azərbaycan K(b)PMK-nın xəbərlərində dərc edilən məlumatında deyilir ki, "Qarabağ məsələsi" deyilən heç bir spesifik məsələ mövcud deyildir, bu, Qarabağda partiya və sovet orqanlarının işinin ümumi zəifliyindən doğan bir məsələdir [16].

Lakin istər 1921-ci ildə, istərsə də 1922-ci ildə yuxarıdakı qərarla razılaşmayan ermənilər, xüsusilə L.Mirzoyan, A.Mikoyan bu məsələni dəfələrlə yenidən qaldırırlar. İlk növbədə rəhbər kadrlar və milis orqanlarında dəyişikliklər edildi. 1921-ci ildəki konfransda (21 oktyabr) Qarabağın milis rəisi Rza Abbasova millətçi damğası vuruldu və bu işə beynəlmiləlçi işçilərin (ermənilərin) təyin edilməsi qərarı qəbul olundu.

---

11 Azərbaycan Respublikası Dövlət Arxivi, f.379, siy.1, iş 7483, v. 19, protokol №14

12 Nərimanov N.N. *Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub).* Azərnəşr, Bakı, 1992, s.59.

13 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* с.96.

14 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* с.96-97.

15 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* с.99-101.

16 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* с.103.

1922-ci il oktyabrın 27-də RK(b)P Zaqafqaziya Diyar Komitəsi Rəyasət Heyətinin iclasında bu məsələyə yenidən baxılaraq “5 iyul 1921-ci il tarixli qərarı” - Qarabağa muxtariyyətin verilməsi MK-ya təklif edilir [17].

Bundan sonra, 1922-ci il dekabrın 15-də (SSRİ-nin yaranması ərəfəsində növbəti erməni oyunu) AK(b)PMK-nın rəyasət heyəti yenidən bu məsələyə baxır və 11 maddədən ibarət qərar qəbul edilir.

Azərbaycan XKS-i yanında Dağlıq Qarabağ işləri üzrə Komissiya (Kirov, Mirzabekyants, Karakozov), həmçinin qatı millətpərəst Karakozovun başçılığı altında 7 nəfərdən ibarət Dağlıq Qarabağ üzrə komitə yaradılır[18]. Beləliklə, 1921-1922-ci ildə Dağlıq Qarabağın rəhbərliyinə erməni kadrları cəlb olunur. Hətta Qarabağ və Zəngəzurun tarixini yazmaq məsələsi də müzakirə edilir. Həmçinin Dağlıq Qarabağda guya kadr çatışmazlığını nəzərə alaraq Ermənistandan da buraya kadrların göndərilməsi xahiş olunur. Göründüyü kimi, daşnak-bolşeviklər öz hamilərinə-rus bolşevik qardaşlarına arxalanaraq işi çox hiyləgərcəsinə, böyük ustalıqla həyata keçirdilər.

## 2. Bolşeviklər tərəfindən Azərbaycan ərazisində Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) yaradılması

1923-cü il yanvarın 22-də Kirov, Karakozov Ermənistan K(b)P MK-nın katibi İonnisyana, yanvarın 30-da isə Kirov RK(b)P Zaqafqaziya Diyar Komitəsi Myasnikova gizli və təcili teleqram vuraraq Qarabağa işləmək üçün Tavekelyan, Akopyan, Aydınyan, Vartanyan, Axtınski, Manutsyan, Seronu göndərməyi xahiş edirlər. Hətta kömək olmadan Qarabağda işi nizamlamağın qeyri - mümkünlüyünü də göstərirdilər[19].

1923-cü il aprelin 23-də AK(b)P MK-nın Rəyasət Heyətinin iclasında Tavekelyan və Parizyanın əvəzinə Qarabağ Komitəsinə Çalyan və Manutsyan seçilir, aprelin 25-də bu, Azərbaycan SSR-nin XKS tərəfindən təsdiq edildi.

1923-cü il iyunun 1-də AK(b)PMK-nın Rəyasət Heyəti Dağlıq Qarabağın muxtariyyətinin layihəsini 3 gün ərzində MK-ya təqdim olunmasını qərara alır[20]. İyunun 27-28-də RK(b)P-nin Zaqafqaziya Diyar Komitəsinin ikigünlük iclasında AK(b) P MK-ya 1 ay ərzində Dağlıq Qarabağı muxtar vilayətə ayırmağı, ayrılan rayonların kəndliləri üçün torpaq və suyun ayrılmasını da təmin etmək tapşırıldı.

1923-ci il iyulun 1-də Dağlıq Qarabağ məsələsi AK(b) P MK-nın Rəyasət Heyətinin iclasında, iyulun 7-də isə Azərbaycan MİK-in iclasında müzakirə edildi. İyulun 4-də keçirilən iclasda aşağıdakılar qərara alındı:

a) Qarabağın Dağlıq hissəsində Xankəndi Mərkəz və İcraiyyə komitəsi başda olmaqla Muxtar Qarabağ vilayəti yaradılsın.

b) İcraiyyə Komitəsi yaradılana qədər Dağlıq Qarabağı idarə etmək üçün yoldaş Karakozov başqa olmaqla İnqilab Komitəsi yaradılsın.

---

17 Paşayev A.Ə. *Açılmamış səhifələrin izi ilə.* Azərbaycan, Bakı, 2001,s.330.
18 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* c.138.
19 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* c.145.
20 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* c.148.

c) İnqilab komitəsində 2 aydan gec olmayaraq sovetlər qurultayı çağırılmaq tapşırılsın;

ç) Yoldaş Ə.Qarayevin sədrliyi, Sviridov, Karakozov, Bünyadzadə və İldırımın üzvlüyü ilə Komissiya yaradılsın və Komissiyaya tapşırılsın:

1) Dağlıq Qarabağın sərhədlərini;

2) Aşağı Qarabağın (Aran Qarabağı) inzibati bölgüsünü;

3) Kürdüstanın Əsasnaməsini müəyyənləşdirsin [21].

Bu dövrdə Kürdüstan qəzası ideyası da daşnaklar tərəfindən ortaya atılmışdı. Daşnaklar bu yolla Azərbaycan ərazisini parçalamaq və Ermənistan dövlətinin ərazisini genişləndirmək üçün daha artıq torpaqlar zəbt etmək niyyətində idilər.

1923-cü il iyulun 7-də rəsmi olaraq Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında Azərbaycan MİK-in dekreti çıxdı. Dekretdə Azərbaycan SSR-nin tərkib hissəsi kimi, mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağın erməni hissəsində muxtar vilayətin yaradılması Vilayət İcraiyyə Komitəsi və yerli sovetlərin muxtar vilayətin icra orqanları olması və vilayət icraiyyə Komitəsi yaradılana qədər İnqilab Komitəsinin təşkil edilməsi, 2 aydan gec olmayaraq icraiyyə orqanı seçmək üçün Sovetlər qurultayı çağırılması məsələləri nəzərdə tutulmuşdu. Həmçinin Vilayətin İcraiyyə Komitəsinin maliyyə və texniki vəsaitləri ASSR-i tərəfindən təmin olunur, vilayət əsasnaməsi hazırlamaq, inzibati vahidləri və sərhədləri təyin etmək üçün qarışıq komissiya yaradılır və komissiyaya tapşırılır ki, işini avqustun 15-nə kimi başa vursun.

1923-cü il iyulun 16-da bu məsələ AK(b)P MK-nın Rəyasət Heyətinin iyulun 21-də isə Azərbaycan MİK Rəyasət Heyətinin və XKS-nin iclasında müzakirə edildi.

Qarabağ məsələsi üzrə D.Bünyadzadə çıxış etdi və aşağıdakılar qərara alındı:

a) Dağıdılmış Skobelevski cəmiyyətinin kəndlərini Dağlıq Qarabağ ərazisinin tərkibinə daxil etmək.

b) Şuşa şəhərini Dağlıq Qarabağ vilayətinin tərkibinə daxil etmək;

c) Kürdlərin tutduğu ərazilərdən «Kürdüstan qəzası» təşkil etmək;

d) XKS-nə bu qəzaların dəqiq inzibati mərkəzlərini və sərhədlərini təyin etməyi tapşırmaq;

e) 5 nəfərdən ibarət Dağlıq Qarabağ Muxtar Vilayət İnqilab Komitəsini təşkil etmək. Sədr yoldaş Karakozov, üzvlər – Kostayan, Çalyan, Biniatov, Kafiyev.

f) Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamənin son variantının hazırlanması Karakazov, Biniatov, Çalyan, Vereyskis, Manutsyandan ibarət komissiyaya tapşırılsın. Komissiyanın 1 həftə ərzində çağırılması yoldaş Karakazova həvalə edilsin.

g) Azərbaycan MİK adından Azərbaycan kəndlərinə muxtariyyətin məqsəd və əhəmiyyətini izah edən çağırışla müraciət etmək vacib hesab edilsin.

Qərarda həmçinin milli dil haqqında da ayrıca bənd mövcud idi. Dağlıq Qarabağ Muxtar Vilayətində yazışma erməni dilində aparılmalı, dövlət dili isə türk və paralel rus dili hesab edilirdi[22]. Bu, Azərbaycan tərəfindən ermənilərə edilən çox böyük güzəşt idi.

21 Azərbaycan Respublikası Dövlət Arxivi ,f.379, siy.1, iş 7492, v. 14.

22 Azərbaycan Respublikası Dövlət Arxivi, f.379, siy.1, iş 7490, vv. 16,17; iş 7493, vv. 45, 46.

Bundan sonra, Dağlıq Qarabağ Muxtar Vilayətinin əsasnaməsini hazırlayan, həmçinin Dağlıq Qarabağla Aşağı Qarabağ və Kürdüstanla sərhədləri və inzibati idarə formalarını müəyyənləşdirən komissiyanın iclası keçirilmiş və aşağıdakı məsələlər qərara alınmışdı: Dağlıq Qarabağ Mutar Vilayətinin əsasnaməsi üçün əsas olaraq quberniya icraiyyə komitələri üçün 1923-cü il Əsasnaməsi (Rusiya Federasiyası üçün nəzərdə tutulan) götürülsün; Karguzarlıq, məhkəmə işləri, məktəblərdə təhsil doğma dildə aparılsın. Dağlıq Qarabağ ərazisinə xeyli türk kəndləri də daxil edilmişdi. Sənədlə tanış olduqdan sonra bu kəndlərin içərisində əksəriyyətinin azərbaycanlı kəndi olduğunu görürük. Qafqaza, Qarabağa ruslar tərəfindən köçürülmüş ermənilərin sayı azərbaycanlı əhalisi ilə nisbətdə çox az idi, onlara muxtariyyət vermək ən böyük və sonu faciə ilə bitən səhv idi. Öz növbəsində Ermənistanda yaşayan və bəhs olunan dövrdə ermənilərdən çox olan azərbaycanlı əhalisinə muxtariyyət verilməsi məsələsi sovet rəhbərliyini düşündürməmiş, azərbaycanlı kommunistlər tərəfindən heç bir dəfə də olsun qaldırılaraq müzakirə edilməmişdi. Beləliklə, Dağlıq Qarabağın ərazisinə Cavanşir qəzasından 45, Şuşa qəzasından 92, Qubadlı qəzasından 32 kənd (cəmi 69) daxil edildi [23]. Erməni dili rəsmi olaraq Qarabağla əlaqə dili elan olundu. Xankəndinin adı dəyişdirildi, Şaumyanın şərəfinə Stepanakert adlandırıldı (1923, sentyabrın 18-i). Nəticədə, Qarabağ ərazisi əslində 1923-cü ildə “ermənilərə Rusiya tərəfindən verildi”.

### 3.Ermənilərin Dağlıq Qarabağda ərazi zəbt etmək siyasəti

Bu hadisələrdən sonra N.Nərimanov V.İ.Leninə məktubunda yazırdı: «Həmişə Denikini müdafiə etmiş Ermənistan müstəqillik qazanmış və üstəlik də Azərbaycan ərazilərini almışdır… Azərbaycan isə həm ərazisini, həm də müstəqilliyini itirir». O, V.İ.Lenindən mərkəzdə oturmuş erməni daşnak kommunistlərinin iyrənc işinə, murdar hərəkətlərinə son qoymağı xahiş edirdi[24].

İ.V.Stalinə məktubunda isə N.Nərimanov Azərbaycanın taleyinin erməni daşnaklarına tapşırıldığını, nəticələrin nə kimi olacağını, bunun məsuliyyətinin Serqo (Orconikidze) və Stalinin üzərinə düşəcəyini yazırdı [25]. Lakin N.Nərimanovun bu sətirlərini sonrakı peşmançılığın nəticəsi hesab etmək olar. Erməni daşnakları Azərbaycan ərazilərini zəbt edə-edə Azərbaycanda rəhbər vəzifələri ələ keçirəndə, buna qarşı çıxmaq, heç olmasa erməni bolşevik-daşnakları kimi əqidə möhkəmliyi, birlik nümayiş etdirmək lazım idi.

1924-cü il mayın 5-də AK(b)P MK-nın VI qurultayında çıxış edən M.Kirov Qarabağ məsələsinin həll olunduğunu və bu məsələyə bir də qayıdılmayacağını söylədi [26]. Lakin tarix bolşeviklərin böyük səhvə yol verdiyini göstərdi.

1924-cü il iyunun 5-də sərhəd məsələləri üzrə komissiya Ağdam qəzası ilə Dağlıq Qarabağ Muxtar Vilayəti arasındakı “mübahisəli məsələnin” həlli ilə məşğul olaraq qərara alır ki, Ağdam qəzasına məxsus olan “Honaşen (Kurapatkino kəndi) ərazisi Dağlıq Qarabağ Muxtar

23 Paşayev A.Ə. *Açılmamış səhifələrin izi ilə.* Azərbaycan, Bakı, 2001, s.165-166.
24 Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi, f.609, siy.1, iş 62, vv.17-19.
25 Nərimanov N.N. *Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub).* Azərnəşr, Bakı,1992, s.60.
26 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* c.241-242.

Vilayətinə verilsin, digər torpaq mübahisələrini həll etmək üçün isə Arzanyan, Petrosyan, Qurbanovdan ibarət komissiya təşkil edilsin. Göründüyü kimi, muxtar vilayətlərini yaradan ermənilər müxtəlif bəhanələr uyduraraq daha çox əraziləri zəbt edirdilər”[27].

1924-cü il noyabrın 26-da “Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında əsasnamədə” Müxtar Vilayətin tərkibində artıq 193 kəndin adı çəkilirdi. Bir ildən də az müddətdə ermənilər daha 24 kəndi mənimsəmişdilər[28].

Beləliklə, 1924-cü ildə qəbul edilmiş əsasnaməyə görə Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan SSR-in tərkib hissəsi elan edilsə də, ermənilər Azərbaycan ərazisi hesabına öz dövlətini yaratmaq arzusundan əl çəkmədilər.

## 4.Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra ermənilərin işğalçı fəaliyyətlərinin Azərbaycan üçün acı nəticələri

1929 – cu il fevralın 18 – də tarixən Azərbaycan torpağı olan Zəngəzurun İranla sərhədə çıxan sonuncu parçası Ermənistana verildi. Bu qərarla Azərbaycanın Cəbrayıl qəzasının Nüvədi kəndi, Ordubad qəzasının Kərkivan, Kilid kəndləri, ümumiyyətlə 11 kənd Ermənistana verilmiş və Ermənistan Sovet Respublikasının ərazisi 29,8 min kv.km – ə çatmışdır[29]. Bu torpaqlar hesabına Ermənistan SSR-in Meğri qəzası yaradıldı. Naxçıvan Azərbaycanın böyük bir hissəsindən ayrıldı. Ermənistanın Azərbaycana ərazi iddiaları hətta II dünya müharibəsi illərində də səngiməmişdir. 1943-cü il Tehran konfransının (28 noyabr – 1 dekabr) gedişində Sovet – İran münasibətlərinin müzakirəsi zamanı erməni diasporu fürsətdən istifadə edərək SSRİ Xarici İşlər Komissarı V.Molotova müraciətlərində İ.Stalindən (İranda yaşayan ermənilərin Sovet Ermənistanına köçürülməsinə icazə verməsini xahiş etmişlər[30]. İ.Stalinlə danışdıqdan sonra V.Molotov ermənilərə müsbət cavab vermişdi. Bu hadisədən sonra, 1945-ci ilin aprelində bütün dünya ermənilərinin ali katalikosunun müavini Georq (Çeorekiyan) ərizə ilə İ.Stalinə müraciət edərək Eçmiədzin kilsəsinin fəaliyyətinə icazə verilməsini xahiş etdi. 1945-ci il aprelin 19-da İ.Stalin onun xahişini yerinə yetirərək kilsənin fəaliyyətinə razılıq verdi.

Bu hadisədən sonra, siyasi büronun üzvü olan A.Mikoyanın dəstəyi ilə 1945-ci ilin noyabrında Ermənistan K(b)P MK-nın I katibi Q.Arutyunov İ.Stalinə məktubla müraciət edərək Dağlıq Qarabağı Ermənistan SSR - ə birləşdirməyi xahiş edir. İ.Stalin məsələni aydınlaşdırmaq üçün məktubu G.Malinkova göndərir. G.Malinkov isə öz növbəsində Azərbaycan K(b)P MK – nın I katibi M.C. Bağırova göndərir. M.C. Bağırov İ.Stalinə məktub yazaraq Dağlıq Qarabağın Şuşa rayonunu çıxmaq şərtilə Ermənistana verilməsinin əleyhinə çıxmadığını bildirdi. Lakin əvəzində Ermənistan SSR, Gürcüstan SSR və Dağıstan MSSR – də azərbaycanlıların yaşadığı

27 *К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР,* c.241-242.
28 Paşayev A.Ə. *Açılmamış səhifələrin izi ilə.* Azərbaycan, Bakı, 2001, s.342.
29 *Deportasiya. Azərbaycanlıların Qərbi Azərbaycandan-indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransının materialları*. ADPU-nun mətbəəsi, Bakı, 1998, s.61.
30 *Deportasiya*, s.40.

tarixən Azərbaycana məxsus olan torpaqların yenidən Azərbaycan SSR – ə qaytarılması şərtlərini irəli sürdü . Beləliklə, ermənilərin Dağlıq Qarabağla bağlı planları alt – üst olur. Ermənilər bu dəfə Ermənistanda yaşayan azərbaycanlıları öz tarixi torpaqlarından deportasiya etmək planını hazırladılar və elə 1945-ci ilin noyabrında Ermənistan hökumətinin vəsaiti hesabına SSRİ hökuməti xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi işinin təşkili haqqında qərar qəbul edir [31]. Ermənistan hökuməti yanında repatriantların qəbulu və yerləşdirilməsi məsələləri ilə məşğul olan xüsusi komitə yaradıldı. 1946- cı ildə 130 min erməni Ermənistana köçmək üçün Moskvaya müraciət etdi .

Yalnız 1946-cı ildə Ermənistana Yunanıstan, Suriya, Livan, İran, Bolqarıstan və Rumıniyadan 50.9 min nəfər, 1947-ci ildə isə Fələstin, Suriya, Fransa, ABŞ, Yunanıstan, Misir , İran və Livandan 35.4 min nəfər erməni köçdü. Ermənilərin xaricdən Ermənistana köçürülməsi azərbaycanlıların Ermənistandan zorla köçürülməsi barədə qərarın qəbul olunmasına təkan verdi.

1947-ci il dekabrın 23-də A.Mikoyanın fitvası ilə SSRİ Nazirlər Soveti «Ermənistan SSR-də kolxozçuların və başqa azərbaycanlı əhalisinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında» 4083 nömrəli qərarı qəbul etdi. Qərara əsasən 100 min kolxozçu Ermənistandan Azərbaycana könüllülük əsasında köçürülməli idi[32].

Ermənilər azərbaycanlıları öz tarixi yurdlarından qovaraq xaricdə yaşayan erməniləri bu torpaqları yerləşdirirdilər. 1948-ci il martın 10-da azərbaycanlıların köçürülməsi haqda əlavə 754 nömrəli qərar da qəbul olundu. 1948-1953-cü illərdə zorla deportasiya olunmuş azərbaycanlı əhalisi əvəzinə gəlmə erməniləri burada yerləşdirən Ermənistan rəhbərliyi ölkəsini monoetnik dövlətə çevirirdi. 1965 – ci ildən başlayaraq Ermənistanda vəzifələrdə olan azərbaycanlıları işdən azad etməyə başladılar. 1965 – ci il aprelin 23 – də Yerevan şəhərində 400 minlik nümayiş keçirilmiş, “Dağlıq Qarabağ bizimdir”, “Naxçıvan Ermənistan torpağıdır” və s. kimi şüarlar irəli sürülmüşdür. Nümayiş güya “erməni genosidinin 50 illiyinə həsr” edilmişdi. Bu dövrdə “Daşnaksutyun”un üzvləri erməni kommunistlərinin himayədarlığı ilə fəaliyyətə başladılar. Müxtəlif leqal və qeyri - leqal təşkilatlar yarandı[33]. Erməni millətçilərinin apardıqları təbliğat nəticəsində azərbaycanlılarla ermənilər arasında ziddiyyətlər get-kəskinləşdi. Ümumiyyətlə, 1965-ci ildən başlayaraq Sovet hökuməti Ermənistanda antitürk əhval-ruhiyyəsini qızışdırdı[34]. Məhz bu ildən “soyqırım qurbanlarının xatirəsinə” həsr olunmuş tədbirlər həyata keçirilməyə başladı.

---

31 *Deportasiya*, s.27.

32 *Deportasiya*, s.39-43; *Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya*. Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu. “Elm”, Bakı 2003, 367 s.

33 *Deportasiya*, s.65.

34 Melyanas İ. *“Erməni məsələsi və ondan qaynaqlanan erməni – türk qarşıdurmasının tərkib hissəsinə baxış”*. Analitik baxış. Aylıq informasiya məcmuəsi. №1 – may 2010. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin aylıq nəşri s. 6-13.

## Nəticə və dəyərləndirmə

1970-ci illərin sonu, 1980-ci illərdə SSRİ-də yeni və sonuncu iqtisadi, siyasi, mənəvi böhran (belə vəziyyət əslində əvvəllər də olmuşdu. Məs. N.S.Xruşşovun hakimiyyəti dövründə) başladı. Ölkəni bürüyən rüşvətxorluq, təsərrüfatsızlıq, iqtisadiyyatda şişirtmə nailiyyətlərin mövcudluğu, inzibati amirlik sisteminin dözülməzliyi dövlətin məhvinə gətirib çıxartdı. M.Qorbaçovun Sov.İKP MK-nın Baş katibi vəzifəsinə gəlməsindən sonra, siyasi və iqtisadi sahədə aşkarlıq, demokratiya, plyuralizm, bazar iqtisadiyyatı adı altında həyata keçirdiyi islahatlar böhranı daha da dərinləşdirdi. Sözdə elan olunmuş demokratik hüqüq və azadlıqların real təminatı yox idi. Dövləti qanunlar deyil, kommunist partiyasının liderlərinin maraqları idarə edirdi. Erməni lobbisi M.Qorbaçovu öz təsiri altına salmış və ona təzyiqlər göstərirdi. M.Qorbaçov ermənilərin havadarına çevrilmişdi.[35] XX əsrin 80 – ci illərində erməni millətçilərinin təcavüzkar siyasəti yeni mərhələyə qədəm qoydu. Moskvanın təzyiqi ilə Qazax rayonunun Yuxarı Salahlı, Əskipara, Şıxlı, Kəmərli və b. kəndlərinin beş min hektar sahəsi Ermənistana verildi [36]. 1987 – ci ilin oktyabrında isə Yerevan şəhərində Puşkin adına parkda "Qarabağ" komitəsinin ilk nümayişi keçirildi. Bu nümayişdə "Qarabağı Ermənistana birləşdirmək" – "Miatsum"(birləşmək) şüarları səsləndi. Erməni liderləri "Dağlıq Qarabağ uğrunda hərəkat"a başladılar. 1988-ci ildə Ermənistan beynəlxalq hüquq normalarını pozaraq Dağlıq Qarabağın özünə birləşdirilməsi məqsədilə aşkar fəaliyyətə başladı. Dağlıq Qarabağ ərazisində yaşayan ermənilər öz müqəddaratını təyin etmə hüququnu bəhanə edərək, Azərbaycana tabe olmaqdan imtina etdilər. Erməni separatçıları ərazi iddiaları ilə bağlı planlarında "türksüz Ermənistan" yaratmaq nəzərdə tuturdular. Bunun üçün Ermənistanda yaşayan azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq planlaşdırılmışdı. Ermənilər XX əsrin sonlarında əvvəllər yarımçıq qalan "dənizdən-dənizə Böyük Ermənistan" yaratmaq planlarını reallaşdırmaq üçün yenidən müharibəyə başladılar. Beləliklə, 1988-ci ildən etibarən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlandı ki, bu da məhz XX əsrin 20-ci illərində rus bolşeviklərinin erməni daşnakları ilə birgə "fəaliyyət"lərinin acı nəticəsi idi.

**Hakim Qiymətləndirmə:** Xarici Müstəqil.
**Maraqların Çatışması:** Müəllif tərəfindən heç bir maraq çatışmazlığı elan edilməmişdir.
**Maliyyə Dəstəyi:** Müəllif bu araşdırmanın maddi dəstək almadığını elan etdi.

**Hakem Değerlendirmesi:** Dış bağımsız.
**Çıkar Çatışması:** Yazar çıkar çatışması bildirmemiştir.
**Finansal Destek:** Yazar bu çalışma için finansal destek almadığını beyan etmiştir.

**Peer-review:** Externally peer-reviewed.
**Conflict of Interest:** The author has no conflict of interest to declare.
**Grant Support:** The author declared that this study has received no financial support.

35 Seyidova Sevinc. *Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı (1991-2005-ci illər)*. Elm və Təhsil, Bakı,2021,s.78-79.

36 Sultanov O.B. *80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə.* Maarif, Bakı, 1995, s.43.

## Qaynaqlar//Kaynakça/References


Azərbaycan Respublikası Dövlət Arxivi (istinadlar mətndə verilir)

Azərbaycan Respublikası Dövlət Siyasi Partiyalar və İctimai Hərəkatlar Arxivi (istinadlar mətndə verilir)

*Deportasiya. Azərbaycanlıların Qərbi Azərbaycandan-indi Ermənistan adlandırılan ərazidəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyasına həsr olunmuş elmi konfransının materialları.* ADPU-nun mətbəəsi, Bakı,1998, 218 s.

*Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri (XIX-XXI əsrlər). Müxtəsər xronoloji ensiklopediya.* Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutu. Elm, Bakı, 2003, 367 s.

Melyanas İ. "Erməni məsələsi və ondan qaynaqlanan erməni – türk qarşıdurmasının tərkib hissəsinə baxış". *Analitik baxış. Aylıq informasiya məcmuəsi*. №1 – may 2010. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin aylıq nəşri s. 6-13.

Nərimanov N.N. *Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub).* Azərnəşr, Bakı, 1992, 80 s.

Paşayev A.Ə. *Açılmamış səhifələrin izi ilə.* Azərbaycan, Bakı, 2001, 536 s.

Seyidova S.M. *Azərbaycanın beynəlxalq əlaqələri (1920-1930-cu illər).* Diplomatiya, Bakı, 1998, 148 s.

Seyidova Sevinc. *Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində beynəlxalq təşkilatların iştirakı (1991-2005-ci illər).* Elm və Təhsil, Bakı, 2021,410s.

Sultanov O.B. *80-ci illərin sonu, 90-cı illərin əvvəllərində Azərbaycanda siyasi mübarizə.* Maarif, Bakı, 1995, 232 s.

*К истории образования Нагорно-Карабахской Автономной Области Азербайджанской ССР. 1918-1925.* Документы и материалы. Азербайджанское государственное Издательство, Баку, 1989, 334 с.